# Qazi məzun oldu

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bu il Azərbaycan Texnologiya Universitetinin məzunu olan müharibə əlili Elmar Nəsirovla görüşmüşdür.**



N.Bayramov Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, müharibə iştirakçılarına və veteranlara göstərdikləri yüksək diqqət və qayğıdan söhbət açmış, Ali Baş Komandanın rəhbərliyi və ordumuzun rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan şərəfli qələbədən danışmış, bu döyüşlərdə Elmar kimi vətənpərvər, igid gənclərin sarsılmaz iradəsi və qəhrəmanlığını qeyd etmişdir. O, Elmar Nəsirovu Azərbaycan Texnologiya Universitetini uğurla bitirməsi münasibətilə təbrik edərək ona gələcək həyatında uğurlar arzulamışdır.

Azərbaycan Texnologiya Universitetinin rektor əvəzi Yaşar Ömərov Elmar Nəsirovun tələbəlik illərində də fəal olduğunu qeyd etmiş və ona gələcək həyat yolunda nailiyyətlər diləmişdir.

Elmar Nəsirov Vətən müharibəsində ağır yaralanmasına baxmayaraq, fəal həyat tərzi keçirdiyini bildirmiş və qeyd etmişdir ki, dövlətimiz tərəfindən ona daim diqqət və qayğı göstərilir.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsinin iştirakçısı Elmar Elmir oğlu Nəsirov Füzuli-Xocavənd istiqamətində gedən ağır döyüşlər zamanı yaralanmış, YAŞAT Fondu tərəfindən Türkiyənin Bursa şəhərində yerləşən Fiziki Reabilitasiya Xəstəxanasında müalicə almışdır. Prezident İlham Əliyevin sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 9 iyul (№ 138).- S.9.